# "Qazax-Borçalı bölgəsinin xalçaçıları"
## adlı dərs vəsaitinin təqdimat mərasimi

Aprelin 11-də Ağstafa şəhərində Ağstafa rayon İcra Hakimiyyətinin və "Azər-İlmə" Elmi-Tədqiqat və İstehsalat Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycan xalçaları bütün qrupları ilə" adlı funademental elmi layihə çərçivəsində nəşr olunmuş "Qazax-Borçalı bölgəsinin xalçaçıları" dərs vəsaitinin təqdimat mərasimi keçirilmişdir. Mərasimdə rayonun mədəniyyət və incəsənət xadimləri, ziyalılar, xalçaçılar, həmçinin Qazax, Tovuz rayonlarının ictimaiyyət nümayəndələri iştirak edirdilər.










Tədbiri giriş sözü ilə açan Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev "Qazax-Borçalı bölgəsinin xalçaçıları" adlı kitab-kataloqu haqqında iştirakçılara məlumat verərək, onu Azərbaycan mədəniyyət tarixinin, xalçaçılıq ənənələrinin keçmişi, müasir durumu və gələcək perspektivlərinin araşdırılması baxımından mühüm mənbə kimi dəyərləndirmişdir. Natiq "Azər-İlmə"nin respublikamızın bütün bölgələrində, o cümlədən onun hüdudlarından kənarda yaşayan həmvətənlərimiz arasında xalçaçılıq sənətinin tədqiqi, təbliği və inkişafı istiqamətindəki uğurlu fəaliyyəti haqqında məlumat verib. Məhərrəm Quliyev kitabın müəllifi, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Mu-







radovu Ağstafa rayon İcra Hakimiyyətinin Fəxri fərmanı ilə təltif etdi. Azərbaycan Respublikasının Milli Məslisinin Mədəniyyət komitəsinin sədri, millət vəkili, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov kitab-kataloqu həm sənətşünaslıq, həm də tarixşünaslıq baxımından qiymətli əsər, bu sənəti yaradan, yaşadan insanlara ucaldılmış abidə kimi dəyərləndirdi. Professor Vidadi Muradov "Azər-İlmə"nin Qazax-Borçalı bölgəsi üzrə apardığı elmi ekspedisiyalar, əldə olunan nəticələr, burada toxunan xalçalar, xalçaçılar, boyaqçılar, xalça tacirləri haqqında məlumat verdi. Tədqiqat işlərinin aparılmasında göstərdikləri köməyə görə yerli icra















hakimiyyəti orqanlarına, kənd sakinlərinə öz təşəkkürünü bildirdi.

Tədbirdə Qazax rayon İcra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülaya Həsənova, Azərbaycanın Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Kübra Əliyeva və digərləri çıxış edərək kitab-kataloq haqqında bəhs etmişlər. Ağstafa rayon Poylu kənd sakini, xalça ustası Mahirə Qədimova Azərbaycan xalçaçılarının fəaliyyətinin öyrənilməsi istiqamətindəki işlərinə görə, kitabda haqqında məlumat verilmiş xalçaçılar adından "Azər-İlmə" yə öz təşəkkürünü bildirdi. Mərasim iştirakçıları "Azərbaycan xalçaları. Qazax-Borçalı qrupu" telefilminə tamaşa etdilər. "Azər-İlmə"nin adından Ağstafa rayonun Heydər Əliyev Mərkəzinə, kitabxanalara, mədəniyyət mərkəzlərinə, yaradıcılıq birliklərinə, o cümlədən Qazax, Ağstafa, Tovuz rayonlarını təmsil edən xalçaçılara kitablar, broşürlər, jurnallar, telefilmlər hədiyyə edildi. Tədbir iştirakçıları qədim xalçalardan ibarət sərgi, "Azər-İlmə"nin nəşrlərindən ibarət kitab ekspozisiyası ilə də tanış oldular.

*"Azərbaycan xalçaları"*

